İPƏK YOLU, No.2, 2022, səh.48-57

# BÖHRAN ŞƏRAİTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİYƏ TƏSİR EDƏN AMİLLƏRİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ

**Toğrul Əkbərli**

Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: togrulakberli@yahoo.com

**Xülasə.** Məqalədə böhran şəraitində iqtisadi təhlükəsizliyə təsir edən amillər tədqiq edilir və göstərilir ki, təhdid anlayışına yanaşmalar bir sıra müsbət nəticələrə gətirə bilər. Tədqiqatın əsas məqsədi biznes subyektlərinin qarşısında duran təhdidlərin müxtəlif sferalar üzrə təhlili və bunun əleyhinə olan tədbirlərin səmərəli istifadəsinin analizidir.

**Açar sözlər:** biznes subyektləri, iqtisadi təhlükəsizlik, risk, risk zonası, təhdid.

**CHARACTERISTICS OF FACTORS AFFECTING ECONOMIC SECURITY IN TIMES OF CRISIS**

**Togrul Akbarli**
*Lankaran State University, Lankaran, Azerbaijan*

**Abstract:** The paper discusses the factors affecting economic security in a crisis and shows that approaches to the concept of threat can lead to a number of positive results. The main purpose of the study is to analyze the threats faced by businesses in various areas and to study the effective use of countermeasures.
**Keywords:** business entities, economic security, risk, risk zone, threat.

**ХАРАКТЕРИСТИКА ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ЭКОНОМИЧЕСКУЮ БЕЗОПАСНОСТЬ В УСЛОВИЯХ КРИЗИСА**

**Тогрул Акбарлы**
*Ленкоранский государственный университет, Ленкорань, Азербайджан*

**Резюме.** В статье рассматриваются факторы, влияющие на экономическую безопасность в условиях кризиса, и показывается, что подходы к понятию угрозы могут привести к ряду положительных результатов. Основной целью исследования является анализ угроз, с которыми сталкивается бизнес в различных сферах и исследование эффективного использования мер противодействия.
**Ключевые слова:** хозяйствующие субъекты, экономическая безопасность, риск, зона риска, угроза.

## 1. Giriş

Müasir iqtisadi münasibətlər sisteminin tələbləri baxımından biznes subyektlərinin məhsul və xidmətlər bazarında getdikcə dərinləşən rəqabət mühitində, mütəmadi dəyişən xarici amillərin təsiri altında və qeyri müəyyənlik dərəcəsinin yüksək olduğu bir şəraitdə fəaliyyət göstərmələri etibarlı iqtisadi təhlükəsizlik sisteminin mövcudluğunu tələb edir. Biznes subyektlərinin iqtisadi təhlükəsizlik problemləri iqtisadiyyatda böhran hallarının yaranması və bazarların qloballaşması zamanı daha da kəskin xarakter alır.

Müasir şəraitdə iqtisadi təhlükəsizlik konsepsiyası aşağıdakı alqoritm əsasında formalaşır:

- müdafiə edilən obyektləri və onların sayını müəyyənləşdirmək;
- təhdidlərin spektrini və onlardan qorunma üsullarını təyin etmək;

Hal - hazırda ədəbiyyatlarda mənaca bir-birinə yaxın "iqtisadi təhlükəsizliyə təhdidlər", "sahibkarlığın təhlükəsizliyinə təhdidlər", "müəssisənin təhlükəsizliyinə təhdidlər" anlayışlardan istifadə edilir.

## 2. Böhran şəraitində iqtisadi təhlükəsizliyə təsir edən amillərinin analizi

Bir çox müəlliflər istənilən səviyyədə iqtisadi təhlükəsizliyə onun ayrılmaz tərkib hissəsi kimi çıxş edən təhdidlərin aradan qaldırılması nöqteyi-nəzərindən yanaşırlar. Nəzərə almaq lazımdır ki, iqtisadi təhlil nəzəriyyəsində təsərrüfat fəaliyyəti ilə bağlı yaranan risklər təhdid kimi tədqiq olunmur. Buna görə də təhlilin başlıca məqsədi məhz biznes subyektlərinin istehsal-təsərrüfat fəaliyyətinə yaranan təhdidlərin mahiyyətini başa düşmək və qiymətləndirməkdən ibarətdir. Bunun üçün isə iqtisadi ədəbiyyatlarda biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi ilə əlaqədar verilən ayrı-ayrı yanaşmalar elmi kontekstdə nəzərdən keçirilməli və bu yanaşmaların hər birinin müsbət və mənfi cəhətləri dəyərləndirilməlidir.

Təsadüfü deyil ki, L.A. Zaporojtseva iqtisadi təhlükəsizliyi müəssisənin cari və perspektiv dövrlərdə dayanıqlı inkişafının təmin edilməsi məqsədi ilə onun istehsal-təsərrüfat fəaliyyətinin real və potensial daxili və xarici təhdidlərdən müntəzəm müdafiə edilməsi qabiliyyəti kimi xarakterizə edir [1, c. 17-25].

S. Q. Arbuzov qeyd edir ki, "iqtisadi təhlükəsizlik stabil inkişaf edən dövlətin sosial-iqtisadi sisteminin elə bir vəziyyətidir ki, dayanıqlı inkişafa maneə yaradan daxili və xarici təhdidlərin müqabilində ümummilli dövlət maraqlarının qorunmasına zəmanətli təminat verilir" [2, c. 28]. Müəllifin təyinatına görə milli iqtisadiyyatın dayanıqlı inkişaf prosesinin dinamik gedişinə pozucu təsir göstərən əsas təhlükə mənbəyi məhz milli dövlət maraqlarının qorunmasının zəiflədilməsinə yönəlmiş, bilavasitə bu işə xidmət edən daxili və xarici təhdidlər hesab olunur. Nəzərə almaq lazımdır ki, təhdid faktorlarının seçilməsi hər bir növ təhdidin identifikasiyasına şərait yaratmaqla bərabər iqtisadi təhlükəsizlik sistemində onların son hədd kəmiyyətini də əvvəlcədən müəyyənləşdirməyə imkan verir.

V. Zabrodskinin yanaşmasına görə "təhdid" adı altında iqtisadi obyektlərin məqsəd və vəzifələrinə uyğun olaraq normal fəaliyyəti üçün təhlükə yaradan faktor və şərtlər toplusu baş düşülür" [3, c. 35-37]. Təhdid gələcəkdə maliyyə dayanıqlığı və tədiyyə qabiliyyətinin, istehsal həcminin və rentabellik səviyyəsinin aşağı düşməsi, iş yerlərinin itirilməsi, büdcəyə vergi daxil olmalarının azalması və s. bu kimi neqativ nəticələrin yaranmasına və müəssisənin fəaliyyətinin pisləşməsinə səbəb olan təhlükə mənbəyidir. Bunun üçün isə tələb olunan ilkin şərt məhz iqtisadi təhlükəsizliyə təsir edən amilləri və təhdidləri vaxtında uçota almaq və diqqətdə saxlamaq lazım gəlir.

V. S. Qusev təhdidi subyektin məqsədi ilə onun xarici mühiti, eləcə də daxili strukturu və fəaliyyət alqoritmi arasında yaranan ixtiyarı münaqişə kimi qiymətləndirir [4, c. 131-132].

V. İ. Yaroçkin təhdidləri qaçırılmış faydada daxil olmaqla birbaşa və ya dolayı maddi ziyan vurmaqla maliyyə itkilərinə gətirib çıxaran, bilərəkdən və ya təsadüfən (düşünülməmiş)

subyektin fəaliyyət rejiminin pozulması ilə əlaqədar real və potensial mümkün hərəkət və ya şərait kimi traktovka edir [5].

Deməli, istənilən təhdid iş yerlərinin ixtisar edilməsi, əmək haqqlarının azaldılması və bunun nəticəsi olaraq büdcəyə vergi ödəmələrinin aşağı düşməsinə səbəb olmaqla subyektinin tədiyyə qabiliyyətinə və maliyyə dayanıqlığına bərpa edilməsi çətin olan ziyanlar vura bilər. Belə bir halda "təhdid" adı altında "məqsəd və vəzifələrinə uyğun iqtisadi obyektlərin normal fəaliyyətinə təhlükə yaradan amillər və şərtlər toplusu" kimi başa düşülür [6].

A.S. Sosnin və P.Ya.Prıqunov təhdid adi altında mənəvi, fiziki və ya maddi ziyan vurmağa qadir bəd əməl sahiblərinin hadisə və ya proses olaraq potensial mümkün və real fəaliyyəti başa düşülür" [7, s.101].

Təhdid anlayışına yuxarıda verilən istənilən təyinatlar bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Əvvəlki müəlliflərdən fərqli olaraq V.S.Qusevin yanaşmasında təhdid birbaşa ziyanın vurulması ilə deyil, yalnız "ideal ziddiyyətsiz" fəaliyyət şəraitinin pozulması ilə əlaqələndirilir. Bazar sisteminin iqtisadi təbiətindən çıxış edərək qeyd etmək olar ki, subyektin istehsal-təsərrüfat fəaliyyəti zamanı ziddiyyətli situasiyaların, münaqişələrin yaranması təbii proses kimi dəyərləndirilir. Bu baxımdan V.S. Qusevə görə təhdid anlayışına yanaşmadan belə nəticəyə gəlmək mümkündür ki, fəaliyyət göstərən subyektin iqtisadi təhlükəsizliyinə təhdid həmişə mövcuddur və mütəmadi olaraq onu müşahidə edir. Onu da qeyd etmək lazımdır ki, V.S. Qusev yanaşmasında subyektin məqsədinin aydın formada göstərilməsi, eləcə də onun strukturu və fəaliyyət alqoritminin müəssisə üçün təhdid yarada bilməsi faktı yanaşmanın müsbət cəhətlərini bir daha səciyyələndirir. V.İ. Yaroşkinə görə təhdid anlayışına yanaşma yaranan münaqişələrə münasibətdə V.S. Qusev yanaşmasının növbəti inkişaf mərhələsi hesab edilir. Lakin təhdid faktı yalnız və yalnız subyektə ziyan dəydikdən sonra etiraf olunur və qəbul edilir. Təbii ki, bu da təyinatın malik olduğu məna yükünə xələl gətirir, onu dəyərdən salır. Eyni zamanda nəzərə almaq lazımdır ki, subyektin normal fəaliyyət rejiminin pozulması hər vaxt maddi ziyanların əmələ gəlməsi ilə nəticələnmir. Bu baxımdan A. S. Sosnin və P.Ya. Prıqunovun təhdidə verdikləri təyinat mahiyyətinə görə V.İ. Yaroşkinin təyinatına yaxındır.

Yuxarıda qeyd edilənlərin yekunu olaraq belə nəticəyə gələ bilərik ki, təhdid anlayışına yanaşmalar bir sıra müsbət cəhətləri ilə xarakterizə olunur. Birincisi, bu təyinatların əksəriyyəti hadisələrin inkişafı anını, yəni hələ təhdidin təhdid kimi qiymətləndirilmədiyi, ziyan faktoruna çevrilmədiyi məqamları özündə ehtiva edir. İkincisi, kəmiyyət baxımından təhdidi, məsələn, dəyən ziyanın azalması və ya artması ilə bağlı riyazi gözləmələrin necə dəyişməsini müəyyənləşdirməyə imkan yaradır.

Deməli, təhdid, subyektin qeyri - stabil vəziyyətindən şüurlu formada hər hansı faydanın əldə edilməsinə yönəlik fəaliyyət, hərəkət kimi dəyərləndirilir. Təhdid, bir qayda olaraq qanunvericilik normalarının (bu və ya digər sahədə mülki, inzibati və cinayət hüququ)

pozulmasını və buna yol verən şəxslərin müəyyən cavabdehlik məsuliyyətinin müəyyənləşdirilməsini nəzərdə tutur.

Beləliklə, neqativ situasiyaların bir necə variantda yaranma mərhələləri və inkişaf mexanizmi, eləcə də inkişafın gətirdiyi nəticələri müəyyənləşdirməklə iqtisadi təhlükəsizliyə təsir edən destruktiv faktoların təsnifləşdirilməsini həyata keçirmək mümkündür [8, s.16]:

- risk zonasının aşkar edilməsi-təhlükə doğura bilən vəziyyətin yaranması ehtimalı;
- çağırışlar - fitnəkar ( provakasiya) fəaliyyət və təzyiq vasitəsi;
- təhlükə - ziyan vurmağa səbəb olan real imkanlar;
- təhdid - ziyan vurmaq niyyəti.

Risk iqtisadi təhlil obyekti hesab edildiyindən təhdidlərə də məhz risk müstəvisindən yanaşma tələb olunur. Çünki təsərrüfat praktikasının ən çox öyrənilən elementi hesab edilən risk təhdidlərin yaranma mənbəyidir və iqtisadi təhlükəsizliyə təhdid yaradan amillərin tədqiqi risklərin təhlili ilə paralel şəkildə aparılmalıdır. Deməli, belə qənaətə gələ bilərik ki, təhdid riskin inkişaf variantı və ya mərhələsidir (*şəkil 1).*




**Şəkil 1.** Biznes subyektlərində böhran hallarının yaranmasının risk və təhdid zonaları

Şəkil 1-dən göründüyü kimi subyektin istehsal-təsərrüfat fəaliyyətinə təhdidlər onun yalnız katastrofik risk zonasına daxil olduğu məqamda yaranır.

Hesab edirik ki, O.A. Qrunin və S.O. Qrunin tərəfindən verilən təsnifat idel, mükəmməl deyil. Məsələn, satış sferasında maliyyə itkilərinin əmələ gəlməsinə səbəb olan rəqabət şəraitinin pisləşməsi konkret subyektə ziyan vurmaq istəyinin, niyyətinin nəticəsi hesab oluna bilməz. Fikrimizcə təhdid - hadisələrin, fəaliyyətin (və ya fəaliyyətsizliyin) elə inkişaf mərhələsidir ki, subyektin normal fəaliyyətinin pozulması üçün imkanlar yaranır və qarşıya qoyulan məqsədə nail olunmaması (xüsusi ilə istənilən növ ziyanın vurulması) ehtimalı yüksəlir. Subyektin normal fəaliyyəti dedik-də ilk növbədə mövcud daxili və xarici amillərin təsir imkanları uçota alınmaqla qarşıya qoyulan məqsədlərə optimal şəkildə nail olunmasını və ya ona kifayət qədər yaxınlaşmanı təmin edən fəaliyyət nəzərdə tutulur.

Məlum olduğu kimi təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinə çoxsaylı faktorlar təsir göstərir. Aydındır ki, təsiredici amillər vaxtında aşkar edilmədikdə və ya tələb olunan səviyyədə onlara reaksiya verilmədikdə bu amillərin təhlükəyə çevrilməsi ehtimalı böyüyür.

Lakin nəzərə almaq lazımdır ki, təhdid aşkar edildikdən sonra o, iqtisadi təhlükəsizlik sahəsindən-səhnəsindən yoxa çıxmır. Odur ki, onları qiymətləndirmək üçün təhlil və nəzarət işlərini həyata keçirmək və imkan yarandıqca neytrallaşdırmaq lazım gəlir. Təhdidi xəbərdar etmək hər zaman mümkün olmur.

N.A. Kazakova iqtisadi təhlükəsizliyə neqativ təsir göstərən amillərə:

- ayrı-ayrı vəzifəli şəxslər və ya təsərrüfat subyektlərinin (dövlət hakimiyyət orqanları, beynəlxalq təşkilatlar, rəqiblər) şüurlu və ya düşünülməmiş fəaliyyəti;

- mövcud təsərrüfat subyektinin fəaliyyət göstərdiyi məhsul və xidmətlər bazarında iqtisadi konyuktura, elmi-texniki kəşflər, fors-major halları kimi obyektiv amillər toplusunu aid edir [9].

## 3. Böhran şəraitində iqtisadi təhlükəsizliyə təsir edən təhdidlərə qarşı tədbirlər planın işlənib hazırlanması mexanizmləri

Təhdid, subyektin qeyri stabil vəziyyətindən şüurlu formada hər hansı faydanın əldə edilməsinə yönəlik fəaliyyət, hərəkət kimi dəyərləndirilir. Daha doğrusu, təhdid kimi müəyyən edilən, qiymətləndirilən fəaliyyət hər hansı ixtiyarı "fayda" almaq məqsədi ilə biznes subyektlərinin iqtisadi təhlükəsizliyini stabilsizləşdirməklə onların istehsal-maliyyə fəaliyyət üçün həlli çətin problemlər əmələ gətirir. Təhdid, bir qayda olaraq qanunvericilik normalarının (bu və ya digər sahədə mülki, inzibati və cinayət hüququ) pozulmasını və buna yol verən şəxslərin müəyyən cavabdehlik məsuliyyətinin müəyyənləşdirilməsini nəzərdə tutur. Praktika göstərir ki, təhdid müəyyən cavabdeh şəxslərin qeyri-qanuni fəaliyyətinin nəticəsidir. Aparılan təhlillərə əsaslanaraq biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təhdid yaradan əlamətləri üç qrupa bölmək olar: şüurlu və qərəzli (tamahkar) xarakter, sahibkarlıq subyektinə ziyan vurmağa yönəlik məqsədyönlü fəaliyyət və bir-birinə uyğun gəlməyən, ziddiyyət xarakterli.

Beləliklə, təhdidlərin faktlar, şərt və fəaliyyətlər (hərəkətlər) toplusu kimi dəyərləndirilməsinə uyğun olaraq iki növə ayrılır:

1. Təbii, iqlim və sosial iqtisadi proseslərin obyektiv inkişafı ilə bağlı təhdidlər. Buna nümunə olaraq iqtisadiyyatın qeyri-bərabər inkişaf etməsi, təbii və insan resurs-larının çatışmaması və digər amillərin təsiri altında iqtisadi artım tempi və strukturunun cəmiyyətin tələblərindən geri qalması proseslərini göstərmək olar. Qeyd etmək lazımdır ki, təhdid həmçinin iqtisadi subyektlərin istehsal-təsərrüfat fəaliyyətinin miqyas etibarı ilə genişlənməsi prosesinin nəticəsi kimi ətraf mühitin çirklənməsi zamanı da formalaşması ehtimalı böyükdür.

2. Müəyyən iqtisadi və sosial fəaliyyətlə əlaqədar yaranan təhdidlər. Mövcud iqtisadi vəziyyətin zəiflədilməsi və qeyri sabitliyi üçün ilkin şərtləri formalaşdıran fəaliyyətlər həm təşkilati və məqsədyönlü, həm də kortəbii xarakterə malik ola bilər. Bu fəaliyyətlər öz iqtisadi maraqlarını milli iqtisadiyyat çərçivəsində, həmçinin beynəlxalq iqtisadi münasibətlər sferasında ciddi münaqişəli situasiyaların yarandığı zaman reallaşdırmaq istəyən ayrı-ayrı şəxslər, təsərrüfat subyektləri və qruplar tərəfindən həyata keçirilir.

Bu baxımdan təhlükə və təhdidlərin identifikasiyası və iqtisadi təhlükəzlik sisteminin prioritetlərinin seçilməsi üçün onların təhdid mənbələri və yaranma təbiətinə, reallaşma ehtimalına, proqnozlaşdırmaq imkanlarına və vurduğu ziyanların faktiki və gözlənilən nəticələrinə görə təsnifləşdirilməsi mühüm əhəmiyyət kəsb edir *(şəkil 2).*




**Şəkil 2.** İqtisadi təhlükəsizliyə təhdidlərin (amillərin) təsnifatı

Şəkil 2 - dən göründüyü kimi yaranma mənbəyinə görə təhdidləri daxili və xarici təhdidlərə bölündüyündən uyğun olaraq təhdid kimi qiymətləndirilən hərəkət, fəaliyyətdə daxili (məsələn,əməkdaşlar tərəfindən məxfi informasiyaların yayılması, işgüzar sənədləri işləyən mütəxəssislərin peşəkarlıq səviyyəsinin aşağı olması, kontragentlərə nəzarətə cavabdeh olan iqtisadi təhlükəsizlik xidmətinin səmərəsiz fəaliyyəti və s.) və xarici (məsələn, material qiymətlilərinin bu müəssisədə işləməyən şəxs tərəfindən oğurlanması, sənaye casusluğu,rəqiblərin qeyri qanuni hərəkətləri, kriminal strukturlar tərəfindən hədələmələr və s.) olmaqla iki cür təsnifləşdirilir.

Lakin qeyd edilən təsnifatlarla yanaşı M. V. Myasnikoviş, S. S. Polonik və V. V. Puzikov iqtisadi təhlükəsizliyə təhdidlərin təsnifləşdirilməsinə əvvəli yanaşmalardan diametral fərqli mövqe nümayiş etdirilər. Belə ki, müəlliflər iqtisadi təhlükəsizliyə təhdidlərin təsnifləşdirilməsində a) bazar alətləri (qiymət əmələgəlmə, kapital qoyuluşları, valyuta rejimi, maliyyə-kredit siyasəti, xarici iqtisadi fəaliyyət və sosial prioritetlər) vasitəsi ilə makro-iqtisadi proseslərin dövlət tənzimlənməsinin məqsədyönlülüyü; b) dövlətsizləşdirmə və özəlləşdirmə

tempinin sürətləndirilməsi); c) ciddi oprodoksal monetar siyasətin həyata keçirilməsi (belə bir siyasətin yürüdülməsi hökümətin mənfəət və maya dəyəri arasında nicbətin effektiv tənzimlənməsi ilə bağlı imkanlarını məhdudlaşdırır, nəticədə geniş təkrar istehsalın makroqitisadi proporsiyaları pozulur) müstəvisindən yanaşılmasını təklif edirlər. Bununla əlaqədar olaraq müəlliflər iqtisadi təhlükəsizliyi iqtisadi, maliyyə (aktiv və passiv metodlardan tətbiqi ilə ölkənin maliyyə - kredit və pul sistemini əhatə edən maliyyə resurslarından istifadəyə əsaslanır), əmək (ölkə iqtisadiyyatının digər ölkələrin işçi qüvvəsindən asılı olmasını nəzərdə tutur), məhsul (alternativin olmadığı halda ölkənin məhsullar bazarının digər ölkənin məhsulları hesabına doldurulması) ekspansiyası (genişlənmə) və maliyyə böhranı (“ institusional valyuta tələsi” adlanan bu mexanizm ölkə əhalisində təlaş yaratmaq üçün hesablanıb) kimi növlərə də ayırırlar [6].

Şəkil 2-də verilən təsnifatdan göründüyü kimi yaranma yerinə görə təhdidlər daxili və xarici amillərdən funksional asılıdır. Sahibkarlıq subyektlərinin müflisləşmə səbəblərinin araşdırılması sahəsində tədqiqat aparan V. F. Qaponenko belə qənaətə gəlmişdir ki, “müflisləşmənin 1/3 xarici, 2/3 hissəsi isə daxili amillərlə əlaqəlidir” [10]. Daha doğrusu, xarici mühitdə baş verən dəyişiklikləri özündə ehtiva edən xarici amillər (iqtisadi, siyasi, sosial, bazar, texnoloji, təbii və s.) bu və ya digər formada sahibkarlıq subyektinin fəaliyyətinə, onun iqtidsadi təhlükəsizliyinə neqativ təsir göstərir.

Adətən, daxili mühit amillərinə aşağıdakılar aid edilir:

- iqtisadiyyatın struktur baxımından deformasiyası;
- investisiya və innovasiya aktivliyinin aşağı düşməsi;
- elmi-texniki potensialın dağıdılması;
- ölkənin inkişaf etmiş dövlətlərin yanacaq-xammal mənbəyinə çevrilməsi;
- cəmiyyətin təbəqələşməsi;
- iqtisadiyyatın və cəmiyyəti kriminallaşması.

Cəmiyyət və dövlət üçün təhlükə mənbəyi hesab edilən daxili təhdidlərə eyni zamanda müxtəlif radikal meylli sosial, milli, etnik qrupların, siyasi partiya və hərəkatların konstitusiya quruluşunu dəyişməsinə, ölkənin iqtisadi dayaqlarının dağıdılması, müdafiə qabiliyyətinin zəiflədilməsi və siyasi sabitliyin pozulmasına yönəlik hərəkətləri də aid edilir.

Xarici mühit amilləri isə əsasən aşağıdakılardan ibarətdir:

- insan kapitalının xarici ölkələrə axını;
- maliyyə kapitalının ölkə hüdudlarından kənara çıxması;
- dövlət borcunun artması;
- idxaldan asılılıq səviyyəsinin yüksəlməsi;
- iqtisadiyyatın yol verilən həddən artıq açıq olması;
- satış bazarlarının və hərbi sənaye komplekslərinin itirilməsi.

Adətən, ölkə hüdudlarından kənarda, düşmən dövlətlər və bu onların ərazisində dost olmayan şəxslərin və mövcud olan müxtəlif separatçı təşkilatların fəaliyyəti nəticəsində

yaranan təhdidlər xarici təhdidlər qrupuna daxil edilir. Praktik təcrübəyə istinadən deyə bilərik ki, təhlükə və təhdidlər siyasi quruluşu dəyişmək, əmək resurs-larına sahib olmaq, birtərəfli güzəştlər əldə etmək və iqtisadi gücü zəiflətmək məqsədi ilə xarici ölkələrin dövlət orqanları və hakim elitası tərəfindən formalaşır.

Ölkənin iqtisadi təhlükəsizliyinə daxili və xaric təhdid və təhlükələrin təsiri bir qayda olaraq cəmiyyətdə və dövlətdə formalaşan daxili və xarici mühit amilləri və onların dəyişməsindən birbaşa asılıdır.

Daxili və xarici təhdidlərin real və potensial təhdidlərdən ibarət olduğunu nəzərə alsaq, görərik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bilavasitə bağlı olan fəaliyyət məhz təhdidlərin proqnozlaşdırılmasından, eləcə də onların lokallaşdırılması üçün daha effektiv üsul, metodların axtarılıb tapılması və reallaşdırılmasından ibarətdir.

Mikro səviyyədə sahibkarlıq subyekti üçün xarici “sifarişlərin” reallaşdırılmasından ibarət daxili təhdidlərdən daha çox təhlükə yaradan məhz xarici təhdidlər hesab olunur. Statistika göstərir ki, təhdidlərin 81.7%-i ya müəssisə (firma) əmək-daşlarının özləri tərəfindən, ya da onların bilavasitə və ya dolayı iştirakı ilə yaranan daxili təhdidlərin, 17.3%-i xarici təhdidlərin, 1,0%-i təsadüfü şəxslər tərəfindən yaradılan təhdidlərin payına düşür [11, s. 5].

Qeyd etmək lazımdır ki, əgər sahibkarlıq subyektlərinin fəaliyyəti xarici amillərdən dolayı formada asılıdırsa, daxili amillər (idarəetmə, informasiya, maliyyə, əmək, istehsal, marketinq, hüquq, texnoloji və s.) onların fəaliyyətinə birbaşa təsir göstərir. Nəzərə alınması tələb oluna digər məqam ondan ibarətdir ki, hər bir təsərrüfat subyekti fəaliyyət miqyası və spesifikliyinə, eləcə də sahə xüsusiyyətlərinə görə bir-birindən fərqləndikləri üçün daxili və xarici faktorlar fərdi xarakterə malik olur. Daxili və xarici mühit amillərinin sahibkarlıq subyektlərinin iqtisadi təhlükəsizliyinə təsir dərəcəsini bu təsiri qiymətləndirməyə imkan verən meyarlar və göstəricilər sistemindən istifadə etməklə müəyyənləşdirmək mümkündür.

A.A.Anasimov təklif edir ki, qeyri müəyyənlik səviyyəsinin yüksək olması, eləcə də mövcud vəziyyətin və artım tempinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş diaqnostik sistemin olmaması ilə xarakterizə olunan xarici mühit, subyektin təsir sferasının hüdüdlarından kənarda yerləşən amillər məcmusu kimi nəzərdən keçirilsin[12, s. 4].

Xarici mühit amillərini təsnifləşdirməklə, onları əsas və ikinci dərəcəli, obyektiv və subyektiv, nəzarət edilən və edilməyən, real və potensial, idarə olunan və olunma-yan, təsadüfü və determinələşdirilmiş amillər qrupuna ayırmaq mümkündür.

Biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təsir edən xarici mühit amillərinin təsnifləşdirilməsi hər şeydən əvvəl, istehsal-təsərrüfat fəaliyyəti üçün nailiyyətlər vəd verən baza amillərinin təhlili zamanı daha çox vacib hesab olunanların az əhəmiyyətlilər içərisindən seçilib ayrılmasına köməklik göstərir. Aydındır ki, biznes subyektlərinin iqtisadi təhlükəsizliyinə təsir edən kəmiyyət və keyfiyyət amillərinin müəyyənləşdirilməsinə belə yanaşma, metoddan istifadə zamanı həm daxili, həm də xarici mühit amillərinin nəzərə alınması olduqca mühüm əhəmiyyət daşıyır. Təbii ki, bu zaman subyektin başlıca vəzifəsi xarici mühitin təsir imkanlarını və hədəflərini nəzarətdə saxlamaq, bu təsirləri qismən lokallaşdırmağa və ya

bütövlükdə aradan qaldırmağa köməklik göstərən tədbirlər hazırlamaq və bununlada özünü neqativ nəticələr-dən qorumaqdan ibarətdir. Deməli, həyat fəaliyyətinin bütün sferalarında (iqtisadi, sosial, mənəvi əxlaq, siyasi, informasiya, müdafiə) təşəkkül tapan və özünü biruzə etdirən daxili və xarici təhdidlər və təhlükələrdən cəmiyyət və dövləti elmi cəhətdən əsaslandırılmış metodların işlənib hazırlanması və tətbiqi ilə qorumaq mümkündür.

Qeyd etmək lazımdır ki, qloballaşma və beynəlmiləşmə proseslərinin intensiv xarakter aldığı müasir iqtisadi şəraitdə təsərrüfat subyektlərinin müflis olmasının ən başlıca səbəbi ətraf mühitin resurs imkanlarının məhdudluğu faktı nəzərə alınaraq məhz milli və beynəlxalq miqyasda resurs uğrunda gedən yüksək rəqabət mübarizəsi ilə əlaqələndirilir. Belə bir şəraitdə mülkiyyət formasından və tabeçilik əlamətindən asılı olmayaraq bütün təsərrüfat subyektləri resursların daha yüksək bazar payına malik müəssisələr arasında yenidən bölüşdürülməsi prosesinin və yenidən bölgünün cazibə dairəsinə düşməmək üçün həm idarəetmənin təşkili, həm də istehsalda müasir texnologiyaların tətbiqi nöqteyi-nəzərindən effektiv fəaliyyət göstərmək məcburiyyətindədirlər. İqtisadi proseslərin bazar mexanizmi vasitəsi ilə sərt və ciddi tənzimlənməsi məhz belə həyata keçirilir.

Nəzərə almaq lazımdır ki, dövlət tərəfindən tənzimlənən indikatorlar iqtisadi təhlükəsizlik mexanizmi vasitəsi ilə formalaşır və o, müxtəlif fəaliyyət sahələrində (ilk növbədə sosial yönümlü) təhlükəsizlik standartlarına uyğun qanunvericilik aktları, hüquqi normalar, təsir metodları toplusundan ibarət dövlətin qanunvericilik siyasəti ilə təmin edilir. Hər bir sferada standartlar müxtəlif ierarxiya səviyyələrinə (səviyyələrə xüsusi orqanlar tərəfindən nəzarət olunur) uyğun formada işlənib hazırlanır və qəbul edilir. Lakin qəbul edilən standartların müxtəlifliyini və çeşid genişliyini nəzərə alaraq deyə bilərik ki, iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından mülkiyyət formasından və sahə mənsubiyyətindən asılı olmayaraq bütün sahibkarlıq subyektlərinin makroiqtisadi əhəmiyyət daşıyan standartlardan (son həddi orta yaşayış minimumun-dan az olmayan işçilərin aylıq əmək haqqı səviyyəsi; bencmarketinq sistemində tətbiq edilən metodika uyğun son həddi ictimai-zəruri məsrəflərlə müəyyənləşən məhsulun maya dəyəri; aşağı həddi vergi orqanları tərəfindən tənzimlənən tədiyyə öhdəliklərini ödəməyə kifayət edən mənfəət norması; ziyansızlıq nöqtəsindən aşağı olmayan həcmdə məhsul göndərilməsinə bazar tələbinin xüsusi çəkisi və s.) istifadə etmələri daha məqsədəmüvafiqdir.

**Nəticə.** Yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, biznes subyektlərinin qarşısında duran məqsədlərin reallaşmasına maneə törədən, onların həyat fəaliyyəti üçün təhlükə mənbəyinə çevrilən daxili və xarici təhdidlərin, böhran hallarının, eləcə də digər əlverişsiz amillərin əsas cəhətlərinin təhlili və qiymətləndirilməsi müxtəlif sfera və fəaliyyət istiqamətlərində iqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin planlaşdırılması, təşkili və həyata keçirilməsi üçün əsaslar yaradır.

Beləliklə, biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar yerinə yetirilən fəaliyyət mahiyyət etibarı ilə həm daxili, həm də xarici təhlükə mənbələrini

uçota almaqla baş verməsi ehtimal olunan təhdidlər əsasında müəyyən edilir. Başqa sözlə, sahibkarlıq subyekti özünün təsərrüfat fəaliyyətini optimal qurmaqla istehsal (xidmət) sahəsində nəzərdə tutulan effektiv nəticələrə nail olursa, deməli, təhlükəsizlik sistemi subyektin fəaliyyət istiqamətindən asılı olaraq qarşısında duran məqsəd və vəzifələrin həlli variantlarını çox asanlıqla tapmaq və reallaşdırmaq üçün geniş imkanlar yaradır. Daha doğrusu, biznes subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi praktiki olaraq onların istehsal-təsərrüfat fəaliyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

## Ədəbiyyat


1. Запорожцева Л.А. (2017), Финансовая безопасность предприятия при переходе на МСФО. Международный бухгалтерский учет, №36, с. 17-25.
2. Ващекин Н.П. (2016), Безопасность предпринимательской деятельности: учеб. пособие. М.: Экономика, 334 с.
3. Забродский В. (2018), Теоретические основы оценки экономической безопасности отрасли и фирмы. Бизнес-информ, № 15–16, с. 35 – 37.
4. Гусев В.С. (2001), Экономика и организация безопасности хозяйствующих субъектов. СПб, ИД «Очарованный странник», с. 131-132.
5. Ярочкин В.И. (1994), Предприниматель и безопасность. Ч. 2. М. Экспертное бюро, 112 с. 6.
6. Соснин А.С., Прыгунов П.Я. (2002), Менеджмент безопасности предпринимательства. Киев, Изд-во Европ. Ун-та, с. 101.
7. Грунин О.А., Грунин С.О. (2002), Экономическая безопасность организации - СПб.: Питер, с. 16.
8. Казакова Н.А. (2017), Финансовая среда предпринимательства и предпринимательские риски: Учебное пособие. - Москва: ИНФРАМ, 207 с.
9. Гапоненко В.Ф. (2017), Экономическая безопасность предприятий. Подходы и принципы: Учебное пособие. - Москва: Издательство «Ось89», 208 с.
10. Абалкин Л.А. (2016), Экономическая безопасность России: угрозы и их отражение. Вопросы экономики, ЛИ-12, с. 5.
11. Анисимов А.А. (2017), Макроэкономика. Теория. Практика. Безопасность: учеб. Пособие, М.: ЮНИТИ, 599 с.